## ("Bəxtiyar Məmmədzadə - 75" silsiləsindən)

# ÖMRÜNÜ ÖMÜRLƏRƏ CALAYAN İNSAN

*(Əvvəli ötən sayımızda)*

Bəxtiyar müəllim eyni zamanda Qafqaz Universitetində də (2000-2002) müəllim kimi fəaliyyət göstərmişdir. Bəxtiyar Məmmədzadənin əsas tədris etdiyi fənlər bunlar olmuşdur: Azərbaycan ədəbiyyatı tarixi; mətnşünaslıq; əruzun nəzəri əsasları; ədəbiyyat nəzəriyyəsi; Azərbaycan ədəbi tənqidi tarixi. Filologiya elmləri doktoru, professor İfrat Əliyeva "Dünyadan bir gözəl insan getdi" adlı məqaləsində həmkarı haqqında həm insan kimi, həm alim kimi danışır və yazır: "Onun özünəməxsus yüksək potensiala malik insanlığı, gözəl poetik ruhlu müəllimliyi var idi. O, dərs dediyi tələbələrin sevimlisi, məntiqli mühazirələri ilə auditoriyaların bəzəyi idi. Bəxtiyar müəllim gəncliyə düzgün istiqamət verən istər yazıları, istərsə də müxtəlif tədbirlərdə dərin məzmunlu çıxışlarına görə nə qədər hünərli, yüksək səviyyəli bir alim kimi iftixarla yad edilirsə, insanlığına görə ikiqat artıq hörmətlə yad edirik. Bəxtiyar müəllim sözün əsl mənasında sağlam əxlaq mücəssəməsiydi, onun üzündən əskik olmayan paklıq və işıqlıq məncə nadir insanlığın nurundan yağırdı".

B.Məmmədzadə 1979-cu ildə "Nəcəf bəy Vəzirovun komediyalarında sənətkarlıq" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır. Hələ o zaman Abbas Zamanov bu işin doktorluq dissertasiyası səviyyəsində olduğunu qeyd etmişdir. Bəxtiyar Məmmədzadə zəkası, fitri istedadı, yaradıcılıq qabiliyyəti dövrümüzdə Allahın kimsəyə vermədiyi bir vergi idi. Bəxtiyarın insanlığı, təmizliyi, paklığı, gözütoxluğu kimi... Akademik Vasim Məmmədəliyev "Gözəl alim, mehriban dost" adlı məqaləsində dostunu dəyərli alim və misilsiz insan kimi təqdim edərək yazır: "Bəxtiyar dünya malında gözü olmayan, vardövlətə uymayan, gözü-könlü tox bir insan idi. Bu fani dünyanın bər-bəzəyi, zinəti Bəxtiyarı tovlayıb aldada bilmədi. Cəsarətlə deyə bilərəm ki, o, dünyaya anadan nə cür təmiz gəlmişdisə, dünyadan elə o cür də təmiz getdi".

Bəxtiyar müəllimin "Seyid Əzim Şirvaninin sənətkarlığı" mövzusunda doktorluq dissertasiyasını yazıb başa çatdırmışdır. 500 səhifəlik əsər kafedrada müzakirdən keçmiş, amma müdafiə işi baş tutmamışdır. Onun şairin yaradıcılığı ilə bağlı sanballı məqalələri də diqqəti çəkir. bizə universitetdə "Praktik əruz"dan dərs deyirdi və tez-tez vurğulayırdı ki, siz axırıncı qrupsuz, daha bu dərs tədris olunmayacaq, yaxşı öyrənin. Əruzu bizə Seyid Əzimin əsərləri üzərində öyrədirdi.

Sevimli müəllimlərimdən olan, filologiya elmləri doktoru, professor Hüseyn Əsgərov "Əsl müəllim, böyük mərifət sahibi" adlı yazısında sevimli müəllimi və həmkarı haqqında düşüncələrinin yaza biləcəklərindən qat-qat çox olduğunu vurğulayır və yazır: "Bəxtiyar müəllim ömrünü ömürlərə calayan, dünyaya işıq və ilham gətirən, özündən sonrakılara örnək ola bilən əsl müəllim, böyük mərifət sahibi idi. Son dərəcə təvazökar, sadə, mehriban, həssas, eyni zamanda olduqca ciddiydi. İstək və arzularını biz tələbələri ilə bölüşər, amma kədərini bildirməzdi. Üzündə təbəssüm gəzdirərdi ki, başqalarına xoş əhval-ruhiyyə bağışlasın...".



Zirvədən-zirvəyə üz tutan Bəxtiyar Məmmədzadə yaradıcılığının bir səciyyəvi cəhəti də budur ki, onun yazıları sadəcə bir ədib haqqında və ya ədibin yaradıcılığı haqqında deyildir. Hər hansı bir ədəbi problemdən bəhs edən yazını sadəcə bir şairin yaradıcılığı üzərində işləyən tədqiqatçı-alim eyni zamanda iki iş görmüş olur: həm ədəbi problemin həlli yollunu göstərir, həm də hər hansı bir şairin yaradıcılıq incilərini bizə təqdim edir və onun səciyyəvi tərəflərini işıqlandırır. Fəlsəfə tarixi üzrə fəlsəfə doktoru Əli İbrahimov "Şan-şöhrət və bəxtiyarlığa uyan insan deyildi o" adlı məqaləsində tələbə yoldaşı və dostu haqqında xatirələrini oxucularla bölüşərək yazır: "Əsil alim və elmin ucalığına və bundan da daha böyük zirvələrə Bəxtiyar müəllimi gətirib çıxaran uşaqlığından, yeniyetməlik və gənclik illərindən davranışına, fəaliyyətinə və beyninə hopan, hərislik kimi yabançı nəfsdən kənar saflıq, mənəvi təmizlik, haqqı qorumaq, insani sifətlər və təmiz vicdanı qarşısında gündəlik hesabatıdır. Fəzilətin keşiyində dayanan alim kimi biz onun hidayət yoluna düşməsində bir Tanrı eşqinin cazibəsini görürük".

Bəxtiyar Məmmədzadənin məqalələri bir yerə toplansa, sanballı bir üççildlik çap eləmək olar. Bu məqalələri birbir təhlilə cəlb edib haqqında böyük həcmli bir kitab da yazmaq olar. Hər məqaləsi başqa alimlərin bir kitabına bərabər, bəzən isə hətta onu ötüb keçən bir alimin bu zamana kimi sadəcə elmlər namizədi olması, doktorluq dissertasiyası otuz il bundan əvvəl hazır olsa da, müdafiəyə can atmaması, ancaq və ancaq təmiz alim vicdanıyla, həqiqi müəllim düşüncəsiylə, səmimi insan ürəyiylə baş-başa qalıb şərəfli bir ömür yaşaması zəmanəmiz üçün bəlkə də möcüzədir. Filologiya elmləri doktoru Məti Osmanoğlu "Yeri görünür..." adlı məqaləsində müəllimi və həmkarı haqqında ürək sözlərini yazır: "Ədəbiyyatşünas alim kimi Bəxtiyar müəllimin ən böyük keyfiyyətlərindən biri onun həm Şərq, həm də Qərb ədəbiyyat nəzəriyyəsini dərindən bilməsi və öz tədqiqatlarını bu bilginin təlimi üzərində yaratmağa müvəffəq olmasıdır. Ümuniyyətlə, Bəxtiyar müəllimin xarakterində və insani keyfiyyətlərində maraqlı bir Şərq-Qərb uzlaşması var idi. Bu mənada, Bəxtiyar müəllimin şəxsiyyəti, bir qədər mücərrəd görünsə də, Şərq mədəniyyəti ilə Qərb mədəniyyətinin qovşağı olan Bakıya daha çox oxşayır. Genetik baxımdan əsl bakılı balası olan, Bakının tarix boyu formalaşdırdığı mədəni keyfiyyətlərin təməli üzərində yetişmiş Bəxtiyar Məmmədzadə Avropa sivilizasiyasına kökündən bələd idi, yeniliklərə, müasirliyə dərindən bağlı idi...".

Bəxtiyar Məmmədzadə yüzə yaxın elmi məqalənin müəllifidir. Amma istəsəydi bu sayı beş dəfə artıra bilərdi. Amma o kəmiyyəti yox, keyfiyyəti düşünürdü. İnsanlığı necə idisə, alimliyi də o cür idi. Hər şeydə bütöv olmaq, tam olmaq istəyirdi, hər işində halallıq güdürdü. Yazıçı, astroloq, filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy "Halallıq" adlı məqaləsini belə bitirir: "Haramı özünə yaxın qoymayan insanlar əvvəllər çox idi, lap çox idi, indi isə günü-gündən azalır. Bəxtiyar müəllim kimi ideal halal adamlardan isə, bu qarışıq dünyamızda demək olar ki, heç qalmayıb".

Bəxtiyar müəllimin sağlığında cəmi üç kitabı çap olunmuşdur: "Seyid Əzim Şirvani anadilli poeziyasında bədii dil (poetik sintaksis)", "Seyid Əzim Şirvani anadilli poeziyasında vəzn" və "Feyzulla Qasımzadə (Ömrün yüz ili). Onun əruzla və bədii dil ilə bağlı kitabları bu gün də müəllimlər və tələbələr üçün dəyərli vəsaitdir. Akademik Vasim Məmmədəliyev "Gözəl alim, mehriban dost" adlı məqaləsində dostunu həm insan kimi, həm də dəyərli alim kimi səciyyələndirərək yazır: Bəxtiyar yüksək intellekt, erudisiya, böyük mədəniyyət sahibi idi. O, ədəbiyyatşünaslığın nəzəri məsələlərini, klassik və müasir Azərbaycan ədəbiyyatını, əruz vəznini, onun ədəbiyyatımızda işlənən bəhrlərini, əruzun imalə və zihaflarını çox gözəl bilirdi. Bəxtiyar əruzun tədqiqi, tədrisi və təbliğində Fazil Seyidov, Əkrəm Cəfər və Əli Fəhmi kimi görkəmli alimlərimizin ənənələrini layiqincə davam etdirirdi".

Bəxtiyar müəllim istəsəydi üç yox, otuz kitabı ola bilərdi. O, bir kitabı bir məqalə şəklində yazırdı. Onun hər məqaləsi bir kitab sanbalındadır. Onun hər sözü kimi. Onun haqqında yazılan məqalələrdə Bəxtiyar müəllimin bütün müəllimlərdən fərqli, bütün alimlərdən fərqli bir ömür yaşaması faktı təkrartəkrar vurğulanmışdır. Filologiya elmləri doktoru Tofiq Müzəffəroğlu "Bəxtin sənə yar oldumu" adlı müəllimi və həmkarı haqqında qısa, yığcam yazısında demək olar ki, Bəxtiyar müəllimin ömür yolunu gözümüz önündə canlandırır və yazır: "Bəxtiyar müəllim humanist insan idi. Sifətindən nur tökülən, müsbət aurası ilə ətrafındakılara müsbət enerji ötürməyi bacaran bu qayğıkeş insanın kiminləsə acı davranışı mümkün deyildi. Maraqlı danışıq tərzi vardı: sakit, şirin, bir az da duzlu-məzəli...".

Bəxtiyar Məmmədzadənin kitabları haqqında, habelə müxtəlif məqalələri haqqında çox danışmaq olar, hətta hər kitabı haqqında bir kitab yazmaq olar. Çünki, Bəxtiyar müəllim araşdırılmalı, tədqiq olunmalı olduqca dəyərli elmi irs qoyub getmişdir. Yaradıcılığı kimi Bəxtiyar Məmmədzadə ömrü də araşdırılacaq, tədqiq olunacaq qədər zəngindir. Filologiya elmləri doktoru, professor Sənan İbrahimov "Bəxtiyar müəllimi xatırlayarkən..." adlı yazısında dostunu həm insan kimi, həm alim kimi səciyyələndirir və xatirələrini bizimlə bölüşərək yazır: "Bəxtiyar müəllim səmimi vətəndaş idi. Biz tez-tez toy məclislərinə gedirdik və bir stol arxasında otururdıq. Onu da deyim ki, Bəxtiyar müəllim dəvət olunan yerlərə həmişə gedərdi və xeyir işdən heç vaxt qalmazdı. Baxmayaraq ki, stol arxasında spirtli içkilər içməzdi, bununla belə oturanların əhvalını xoş etmək üçün şirin söhbətlər edərdi...".

Bəxtiyar Məmmədzadə ömrü qibtə olunmalı bir ömürdür. Çoxlarının arzuladığı, lakin yaşaya bilmədiyi pak, işıqlı bir ömür. Bu ömrün hər günü elmə, insanlara yardım etməyə, xeyirxah işlər görməyə sərf olundu. Hətta çoxlarının təəccüb etdiyi bir ömür yaşadı Bəxtiyar müəllim. Filologiya üzrə fəlsəfə doktoru Bəxtiyar Əsgərov "Bəxtiyarlar ölmür" adlı xatirəsində sevimli müəlliminin həyat yoluna nəzər salır, onu həm alim kimi, həm müəllim kimi, həm də ideal bir insan kimi səciyyələndirərək yazır: "Bəxtiyar Məmmədzadə həmişə öz dünyası ilə yaşayan, heç kimi narahat etməyən, öz problemlərini arxa planda saxlayan, eyni zamanda, heç vaxt əyilməyən bir ziyalı idi. Ona baxanda istəristəməz adanda qeyri-adi hisslər formalaşırdı: yəni, insan bu qədər təmiz əxlaqa, saf əqidəyə, tamahsız yaşamağa, elmlə yaşamağa, ucalmağa necə nail ola bilər???".

Bəxtiyar müəllim ailəcanlı insan idi. Övladlarının tərbiyəsinə, təhsilinə xüsusi diqqət yetirmişdi. Eləcə də həyat yoldaşı Xumar xanım. Bəxtiyar müəllimin həyatında çox önəmli rol oynayan Xumar xanım ölənə kimi Bəxtiyar müəllimə olan sonsuz sevgisini yaşatdı. Bir dəfə metroda Bəxtiyar müəllimlə rastlaşdıq, söhbət gəlib mənim ikinci təhsil almağımdan düşdü. Bəxtiyar müəllim dedi ki, yoldaşı da iki ali təhsil almışdır. mən də soruşdum ki, bəs niyə işləmir? Dedi ki, necə işləsin ki, dörd uşağa baxır. Təəccüblə dedi ki, axı, sizin üç oğlunuz var, dördüncü... Gülə-gülə özünəməxsus tərzdə dedi ki, dördüncüsü mənəm də... Gülüşdük. O an heç yadımdan çıxmır.

Bəxtiyar müəllimin hərəkətləri, sakit danışığı, hətta siqaret çəkməyi mənə atamı xatırladırdı. O dəhlizdə siqaret çəkə-çəkə var-gəl edəndə bəzən onu izlərdim. Gülümsünər, yaxınlaşar, "Yenə nə olub?" deyə sual edərdi və söhbətimiz başlardı. Bəzən də həyətdə universitetin qarşısında dayanıb söhbət edərdik. Mövzularımız elmdən, ədəbiyyatdan olurdu. Heyf o günlərdən...



**Sona XƏYAL**